

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 13 (20.914)

23 yanvar 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### Rəsmi xronika



Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti Şimon Peresin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə, o cümlədən elm, təhsil, kənd təsərrüfatı sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Fransanın "Airbus Group International" şirkətinin baş icraçı direktoru Jan Pyer Talamoni ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Fransa arasında əlaqələrin sürətlə inkişaf etdiyi bildirildi, iqtisadi sahədə, o cümlədən kosmos sənayesi sahəsində əməkdaşlığımızın genişlənməsindən məmnunluq ifadə olundu.

* * *

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Swiss Re" şirkətinin beynəlxalq əlaqələr üzrə sədri Martin Parker ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə "Swiss Re" şirkəti arasında əməkdaşlığın inkişafına dair məsələlər müzakirə olundu.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avropa Şurası Parlament Assambleyasının Avropa Şurası Üzv Dövlətləri Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi üzrə Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt və Cozef Debono-Qrex ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri Azərbaycanın 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvü olduğunu xatırladaraq demişdir ki, ötən illər ərzində ölkəmizlə Avropa Şurası arasında sıx əməkdaşlıq qurulmuş, qarşıya qoyulan öhdəliklər uğurla yerinə yetirilmişdir. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də Avropa Şurası arasında əlaqələrin mövcud olduğunu bildirən Ali Məclisin Sədri Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresində Naxçıvan nümayəndə heyətinin təmsil olunduğunu diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri muxtar respublikada Avropa Şurası qarşısında götürülən öhdəliklərin icrasının təmin edildiyini bildirmiş və belə səfərlərin münasibətlərin inkişafı üçün əhəmiyyətli olduğunu vurğulamışdır.

Səmimi qəbula və xoş münasibətə görə minnətdarlıqlarını bildirən həmməruzəçilər Pedro Aqramunt və Cozef Debono-Qrex Naxçıvana ilk dəfə səfər etdiklərini və bundan məmnunluqlarını ifadə etmişlər. Səfər çərçivəsində muxtar respublikada bir sıra görüşlər keçirəcəklərini bildirən qonaqlar əlaqələrin daha da genişlənməsi üçün potensialın olduğunu qeyd etmişlər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Hərbi xidmətə çağırış davam edir

**Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib. Hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə idarənin rəis müavini, polkovnik-leytenant Zahid Əliyev açıb.**



Naxçıvan Şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Şəhər Təşkilatının sədri Zahid Cəfərov çıxış edərək bildiriblər ki, Vətənə xidmət ən ali xidmətdir. Azərbaycanımızın müstəqilliyi heç də asan yolla əldə edilməyib. Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda qəhrəman oğul və qızlarımız şəhid olublar. Buna görə də gənclərimiz daha yaxşı xidmət etməli, şəhidlərimizin qanını yerdə qoymamalı, istənilən anda düşmənə layiqli cavab verməlidirlər.

Valideyn Təhməz Təhməzov hərbi xidmətə yola düşən gənclərə xoş arzularını çatdırmaqla bərabər, bu günün qəlbində böyük qürur hissi oyatdığını bildirib.

Çağırışçılar adından çıxış edən Əvəz Ələkbərov Vətənin keşiyində ayıq-sayıq dayanacaqlarına, verilən əmrləri layiqincə yerinə yetirəcəklərinə söz verib.

Mərasimdə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyev çıxış edərək orduya göstərilən dövlət qayğısından danışıb, xalq-ordu birliyinin sarsılmaz vəhdətindən bəhs ediblər. Mərasim iştirakçıları hərbi xidmətə yola salınan bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, həmin gün Babək rayonunda da çağırışçıların hərbi xidmətə yola salınması mərasimi keçirilib.

*Təbii, müalicəvi "Badamlı" mineral su istehsalı ilə məşğul olan "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahəsi Naxçıvan şəhərində yerləşir.*

# "Badamlı" mineral süfrə suyunun əvvəlki şöhrəti özünə qaytarılıb

Müəssisəyə iki boru xətti çəkilib. Uzunluğu 25 kilometr olan xətlərin biri qazlı mineral süfrə suyunu Badamlı yatağından buraya nəql etmək üçündür. Uzunluğu 35 kilometr olan ikinci xətt qazsız süfrə suyu istehsalı üçün Batabat-Salvartı yaylağından çəkilib.

Müəssisədə müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 10 çeşiddə mineral su istehsal olunur. Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Məlumat üçün bildirək ki, 2013-cü ildə müxtəlif taralarda 3 milyon 773 min ədəd su istehsal edilib muxtar respublika ərazisində, Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılıb. "Badamlı" mineral süfrə suyunun muxtar respublika ərazisində satışı "Gəmiqaya Bərəkət Bazarlama" MMC, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Bakı Satış Mərkəzi vasitəsilə həyata keçirilir.

Bağlanmış müqaviləyə əsasən, ötən il 113 min ədəd mineral su Rusiya Federasiyasına göndərilib. İqtisadi əlaqələrin genişləndirilməsinin nəticəsidir ki, ötən il istehsal edilən



"Badamlı" mineral süfrə suyunun 30 faizi muxtar respublika ərazisində satışa çıxarılıb, 67 faizi Bakı şəhərində və müxtəlif regionlarda satılıb, 3 faizi isə Rusiya Federasiyasına ixrac olunub.

Cəmiyyət qazandığı nailiyyətlərlə kifayətlənmir, 2014-cü ildə muxtar respublika və ölkə sakinlərinin bu suya olan tələbatını ödəmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə çalışır. İstehsal olunan məhsulun digər xarici ölkələrə də göndərilməsi istiqamətində işlər davam etdirilir.

# Qış mövsümünün sərt keçməsinə baxmayaraq, Naxçıvanda heç bir problem yoxdur

Muxtar respublika əhalisinin elektrik enerjisi, istilik və mavi yanacağa olan tələbatının ödənilməsi istiqamətində son illər böyük layihələr həyata keçirilmişdir. Bu həyati vacib məsələlərin həll edilməsi insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədi daşıyır. İndi ilin bütün fəsillərində, soyuq qış aylarında da naxçıvanlılar heç bir çətinliklə üzləşmirlər. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıq məsələlərinin müzakirə edilməsi, bu istiqamətdə görülən işlərin təhlili, qarşıda duran vəzifələrin müəyyən olunması artıq bir ənənə şəklini almışdır. 2013-cü il avqust ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə müxtəlif aidiyyəti sahələr üzrə payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyən olunmuşdur. Ötən dövr ərzində həyata keçirilən tədbirlər öz bəhrələrini vermişdir. Qış mövsümündə Naxçıvan şəhəri və rayon mərkəzlərindəki ictimai yaşayış binaları, idarə və müəssisələr, təhsil, səhiyyə və digər sosial obyektlər, fərdi mənzillər fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, su, istilik və digər kommunal xidmət növləri ilə tam təmin edilir.

Naxçıvan şəhərində çoxmərtəbəli yaşayış binalarının fasiləsiz istiliklə təmin olunması məqsədilə ötən il 12 qazanxana tikilərək istifadəyə verilmişdir. Mövcud qazanxanalar işlək vəziyyətə gətirilmişdir. Təhsil, səhiyyə, mədəniyyət obyektlərinin böyük bir qisminin, idman müəssisələrinin isə hamısının mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunması qış mövsümündə bu təşkilatların normal fəaliyyətinə şərait yaratmışdır. Belə tədbirlər rayonlarda da həyata keçirilmiş, ehtiyac olan bütün binaların çardaq hissələrində, giriş qapılarında, elektrik yarımstansiyaları, qaz təsərrüfatlarında, qapalı su hövzələrində təmir işləri aparılmış, sıradan çıxmış, istismar müddəti başa çatmış avadanlıqlar yeniləri ilə əvəzlənmişdir.

Qış fəslinin mütəşəkkil qaydada başa çatdırılmasında enerji təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyətli məsələdir. Ona görə bu sahədə görülən işlər 2013-cü ildə də davam etdirilmişdir.

Enerji təhlükəsizliyini təmin edən mühüm faktorlardan biri də muxtar respublikanın təbii qazla tam təmin olunmasıdır. İstehlakçıların təbii qazla fasiləsiz təchiz olunması ilə yanaşı, mövcud infrastrukturun yenilənməsi də diqqət mərkəzində saxlanmış, istismar müddəti ötmüş qaz xətlərinin yenilənməsi başa çatdırılmışdır. 2013-cü ildə 81,6 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xəttində tikinti işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Həyata keçirilmiş və davam etdirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikanın bütün emal və istehsal müəssisələrinin, idarə və təşkilatlarının, ali, orta ixtisas və ümumtəhsil məktəblərinin, səhiyyə ocaqlarının fasiləsiz fəaliyyəti təmin edilmişdir. İctimai yaşayış binalarında, fərdi mənzillərdə əhalinin enerji, istilik və mavi yanacağa olan tələbatı yüksək səviyyədə ödənilir. Bütün bunlar belə deməyə əsas verir ki, 2014-cü ilin qış mövsümü də uğurla başa çatacaq.

**Xəbərlər şöbəsi**

### Tarixdən gələn səslər

**Coğrafi baxımdan kiçik, mənəviyyatca böyük olan Naxçıvanda min illərdən boylanan Əshabi-Kəhf mağarası, Nuhun məzarı, Haçadağ, Əlincə qalası kimi tarixi izlər onun ən qədim insanla yaşıdlığından, igidlər, ərənlər oylağı olmasından xəbər verir.**

**Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan həm də öz iqlimi və möcüzəli yerləri ilə həmişə diqqəti cəlb etmişdir. Xan Araza axıb tökülən çayların şırıltısı, hər qayanın dibindən qaynayan bulaqlar, bütün dünyada tanınan "Darıdağ", "Badamlı", "Sirab", "Vayxır", "Şor su" kimi mineral sular, "təbiət muzeyləri" adlanan məşhur "Batabat gölü", "Zor bulaq", "Südlü bulaq", "Əlincə", "Gəmiqaya", "Oğlanqala", "Ağ qaya", "Gəlinqaya", "Heykəlli qaya" əsrarəngizliyi ilə insanları özünə cəlb edir.**

**Bu müqəddəs torpağın yetişdirdiyi övladların səsi-sorağı dünyanın hər yerindən gəlir.**

**"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyimi ilə öz xalqının şərəfini uca tutan, tarixin yeni səhifələrinə öz imzasını atan ümummilli lider Heydər Əliyevin doğma yurdudur Naxçıvan.**

***Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin**
**Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında**
***14 yanvar 2014-cü il tarixli* Sərəncamından**

**Ulu öndər Heydər ƏLİYEV:** *Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq.*

*Naxçıvan Muxtar Respublikası – 90*

# Qoca Şərqin qapısı və ya tarixin yeni Naxçıvanı



Hansı fatehin nəzərindən uzaqda qalıb Naxçıvan? Bu torpaq yadellilər tərəfindən zaman-zaman zəbt edilmiş, dağıdılmış, lakin övladlarının əlləri ilə yenidən abadlaşdırılmışdır. Nuh Peyğəmbərin uyuduğu bu torpaq qədimdən Şərqlə Qərb arasında karvan yollarının kəsişdiyi yerdə qərar tutduğuna görə regiondakı güclü dövlətlərin zərbələrinə tuş gəlmişdir. Naxçıvan İran-Bizans müharibələri zamanı xarabaya çevrilmişdir. Sonra bura gələn ərəblər onu özlərinə istehkama çevirmişlər. Babəkin rəhbərliyi ilə Xürrəmilərin 20 ildən çox davam edən hərəkatında Naxçıvan dayaq nöqtəsi olmuşdur.

Zaman ötdükcə Naxçıvan Sacilər, sonra Salarilər dövlətinin tərkibinə qatılmışdır. XII əsrdə Naxçıvan Atabəylər dövlətinin paytaxtı olmuş, bölgənin inkişaf, tərəqqi dövrü başlanmışdır. Bu dövrdə Naxçıvan həm mədəni, həm də iqtisadi cəhətdən inkişaf etmişdir. Məhz həmin dövrdən qalan və bu günə qədər qorunub saxlanan möhtəşəm tarixi abidələr – Möminə xatın və Yusif Küseyiroğlu türbələri və digər abidələr bu gün də Naxçıvanın o vaxtkı ehtişamına şahidlik edir. Bu abidələrin çoxunda Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin zəkasının izləri var...

### *Naxçıvanı ulu öndərin dəmir iradəsi qorudu*

1918-20-ci illər Azərbaycan Xalq Cümhuriyyəti, eləcə də sovet dövrü Naxçıvan tarixində yeni səhifələr açmışdır. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Tarixdə azadlıq bayrağının dəfələrlə ucaldıldığı Naxçıvanda 1990-cı il yanvarın 19-da SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul edilmişdir. Bu cəsarətli addım sovet imperiyasının ölümünə verilən ilk "fərman" idi. 1990-cı il noyabrın 17-də görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və iradəsi ilə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözləri çıxarılmış və Azərbaycanın üçrəngli milli bayrağı ilk dəfə olaraq Naxçıvanda dövlət bayrağı kimi qaldırılmışdır. Məhz ulu öndər Heydər Əliyevin sayəsində 1990-1993-cü illərdə Naxçıvan qorunub saxlanmışdır. Ulu öndər Azərbaycanda hakimiyyətə qayıdıb xilaskarlıq missiyasını yerinə yetirməklə Naxçıvan muxtar dövlətinin də tarixin yeni mərhələsində mövcudluğunu, dirçəlişini və tərəqqisini təmin etmişdir.

Bu gün Naxçıvan torpağına kimin ayağı dəyirsə, heyrətlənməyə bilmir. Naxçıvanın hər yerində quruculuq, gözəllik, abadlıq göz oxşayır. Tərtəmiz, yaraşıqlı küçələr, insanların bir-birinə mehriban münasibəti, bolluq və xoş güzəran bu yurda başqa bir ahəng verir. Tarix, mədəniyyət abidələrinin qorunmasında, iqtisadi inkişafda, sosial tərəqqidə, idman və turizmin inkişafında, bir sözlə, hər sahədə yüksəliş var.

### *Yol düzgün seçiləndə...*

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi öz başlanğıcını Ali Məclisin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasından götürür. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş cənab Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf yolunun ağır blokada şəraitində yaşayan, nəqliyyat əlaqələrinin maksimum məhdudluğu səbəbindən ciddi problemlərlə üzləşən muxtar respublikada davam etdiriləcəyini, öz fəaliyyətini bu proqram əsasında quracağını bəyan etmişdir. Ötən dövr ərzində Ali Məclisin Sədri bu yolu muxtar respublikada böyük əzmlə, yüksək dinamizmlə davam etdirmiş, həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətlər fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Bu dövrdəki məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə, muxtar respublikanın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Ötən dövr ərzində bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikada tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuşdur. Şəhər və rayonlarda, qəsəbə və kəndlərdə canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektləri yaradılmışdır.

### *Son illərin yüksəliş salnaməsi*

Son 18 il ərzində əldə olunmuş uğurlar və nailiyyətlər, həqiqətən də, yolun düzgün seçilməsi, dəqiq düşünülmüş icra intizamının və Heydər Əliyev yoluna sədaqətin nəyə qadir olduğunun daha bir göstəricisinə çevrilmiş, muxtar respublikada iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam etmişdir.

Son on ildə Prezident cənab İlham Əliyev muxtar respublikamıza 10 dəfə səfər etmişdir. Bu müddətdə dövlət başçısı Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar imzalamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin son 10 ilin uğurlarını ümumiləşdirən geniş hesabatında bildirilir ki, iqtisadiyyat real ifadədə 12,5 dəfə, dövlət büdcəsi 11,7 dəfə artmışdır. İqtisadiyyata 3 milyard 704 milyon manat sərmayə qoyulmuşdur. Sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, nəqliyyat sektorunda gəlirlər üzrə 3,3 dəfə, informasiya və rabitə sektorunda 9,7 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artım olmuşdur. 1 beynəlxalq hava limanı, 5 avtovağzal kompleksi tikilib istifadəyə verilmişdir. 50 körpü, 797 kilometr uzunluğunda yeni avtomobil yolları, 7,3 min kilometrlik qaz kəmərləri çəkilmişdir. Bu dövrdə 4 elektrik stansiyası işə salınmışdır. 954 istehsal və xidmət müəssisəsi yaradılmış, sahibkarlıq subyektlərinin sayı 2 dəfə çoxalmışdır. 58 min 460 yeni iş yeri açılmış, işsizliyin səviyyəsi sıfra enmişdir.

Dövlət büdcəsindən elmin inkişafına sərf olunan xərclər 10 dəfə artmışdır. Təhsilə yönəldilən xərclər 5,1 dəfə artmış, 27 min 284 şagird yerlik 84 ümumtəhsil məktəbi, 226 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmiş, məktəblər kompüter və digər informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuşdur.

Səhiyyəyə sərf olunan xərclər 5,5 dəfə artmışdır. Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, 2 bərpa mərkəzi, 1147 çarpayılıq 21 xəstəxana, növbədə 2234 xəstə qəbul edə bilən 60 ambulatoriya-poliklinika müəssisəsi tikilib istifadəyə verilmişdir. Muzeylərin sayı 15 faiz, mədəniyyət və istirahət parklarının sayı 2,8 dəfə çoxalmışdır.

Əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə artmışdır. Əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Yoxsulluğun səviyyəsi 35,1 faizdən 4,5 faizə enmiş, yoxsul əhalinin sayı 6,8 dəfə azalmışdır. Ümumi sahəsi 1 milyon 451 min kvadratmetr olan yeni evlər inşa edilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış binası və 116 fərdi ev tikilmişdir. 1941-1945-ci illər müharibəsi veteranları, Qarabağ müharibəsi və Çernobıl əlillərinə 298 minik avtomobili verilmişdir.

İdman qurğularının sayı 988-ə çatmış, 1 Olimpiya İdman Kompleksi, 2 üzgüçülük mərkəzi, 1 stadion, 7 şahmat məktəbi tikilib istifadəyə verilmişdir.

Bəli, ötən 10 ilin ümumiləşdirilmiş xarakteristikası ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələr üzrə əsaslı nailiyyətlər qazanılmış, hərtərəfli yüksəliş təmin olunmuşdur.

Bu təkcə son 10 ilin göstəriciləridir. Son 18 ilin nailiyyətləri daha böyük rəqəmlərlə ifadə olunur. Beş minillik şəhərsalma tarixi olan Naxçıvanın taleyində belə inkişaf və yeniləşmə böyük bir təntənədir. Məhz buna görədir ki, Naxçıvan Muxtar Respublikası Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın digər bölgələri ilə, xüsusilə də paytaxtla, hava nəqliyyatı istisna olmaqla, nəqliyyat-kommunikasiya əlaqələrindən təcrid olunmuş vəziyyətdə olsa da belə, pozitiv inkişafını davam etdirməyə qadir olan bir diyar kimi diqqət mərkəzində durur.

Ötən il dekabrın 28-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası tariximizə həm də 2014-cü ilin Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan edilməsi ilə yazıldı. Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi qeyd olunacaq.

2014-cü il yanvarın 14-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda deyilir: ***"Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir".***

***Tarix boyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, torpağın üstündə və altında zəngin mədəni irs qoymuş qədim Naxçıvan bugünkü intibahı ilə sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qol-qanad atıb daha xoş sabahına doğru inamla irəliləyir. Tarixin yeni Naxçıvanı dostlarımızı sevindirir, düşmənlərə gözdağı verir.***

**Cəfər ƏLİYEV**

# Dövlət proqramı bir amala, bir məqsədə xidmət edir:

## *sağlamlıq imkanları məhdud uşaqları gələcəkdə cəmiyyətin fəal üzvünə çevirmək*

**Üçüncü minilliyin ikinci onilliyində sosial-iqtisadi inkişafa və mədəni tərəqqiyə nail olan Naxçıvan Muxtar Respublikasında uşaqların müasir bilik və vərdişlərə yiyələnməsi üçün hər cür şərait yaradılır. Onlar üçün müasir tələblərə cavab verən uşaq bağçaları, məktəblər tikilib istifadəyə verilir.**

Muxtar respublika sağlamlıq imkanları məhdud uşaqların təhsilə yiyələnməsi sahəsində də yeni çağırışları qarşılamağa hazırdır və bunun üçün adekvat inkişafı təmin edəcək islahatlar aparılmaqdadır. Rasional meyarlara söykənən sosial siyasət panelindəki bu kontekstdən olan təklif və təşəbbüslərin sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə özlərini ifadə etməsində, başqa sözlə desək, cəmiyyətə inteqrasiyasında mühüm əhəmiyyəti vardır.

Bu mənada “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı aparılan məqsədyönlü işə əsaslı stimuldur. Proqramın qəbul olunması muxtar respublikamızda insan faktoruna, xüsusən də həssas qrupdan olan yeni nəslə yanaşmanın ifadəsidir. Proqram zaman baxımından da düzgün vaxtda qəbul edilmişdir. Bəlkə də, 15 il bundan öncə bu proqram qəbul edilsəydi, cəmiyyət buna hazır olmadığından qarşıya qoyulan məqsədlərin çox az qismi öz həllini tapardı. Yeri gəlmişkən qeyd edim ki, bu proqram muxtar respublikanın 90 illik tarixində məhdud fiziki imkanlı uşaqların təhsilə cəlbi ilə bağlı qəbul edilmiş ilk dövlət proqramıdır.

Proqramın giriş hissəsində qeyd edilir: “Ümumilikdə, sağlamlıq imkanları məhdud uşaqlara təhsil müəssisələrində digər uşaqlarla bərabər imkanların yaradılması, bu istiqamətdə fəaliyyətin əlaqələndirilməsi və sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə xüsusi proqramın qəbul edilməsi zərurəti yaranmışdır. Proqramın icrası sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına, müasir tələblər səviyyəsində təhsil almasına, digər tərəfdən bu sahədə təhsil sisteminin inkişafına da təkan verəcəkdir”.

Sözügedən proqramın qəbul olunmasında ümumi məqsəd muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarını təmin etmək, cəmiyyətə inteqrasiyasına nail olmaq, sosial reabilitasiyasını gücləndirmək, müasir informasiya texnologiyalarından istifadə imkanlarını artırmaq, məktəb mühitinə uyğunlaşmalarını təmin etmək üçün müvafiq pedaqoji kadr hazırlığı aparmaq, inklüziv və məsafədən (distant) təhsilə keçidə zəmin yaratmaqdan ibarətdir.

Bir sıra dövlət orqanları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də 2014-2015-ci illərdə adıçəkilən proqramın müvafiq müddəalarının icrasını həyata keçirəcəkdir. Qeyd edim ki, komitədə bir neçə ildir, muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına yönəlmiş işlər görülməkdədir. Belə ki, bu günə qədər 1271 sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri ilə əlaqə yaradılaraq onlarla maarifləndirici söhbətlər aparılmış, həmin uşaqlar haqqında məlumat bazası yaradılmış və potensiallarına uyğun olan təlim-tərbiyə müəssisələrinə getmələri tövsiyə olunmuşdur. Təkcə ötən il sağlamlıq imkanları məhdud 37 uşaq ümumtəhsil məktəblərinə və ya məktəbdənkənar müəssisələrə, müalicə və reabilitasiya mərkəzlərinə yönləndirilmişdir. 18 yaşınadək sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlbi ilə əlaqədar 282 uşağın valideynləri ilə əlaqə yaradılmış və bunlardan 67 nəfər muxtar respublikada yerləşən ümumtəhsil müəssisələrinin I siniflərinə qəbul edilmişdir. Əlavə olaraq, 11 nəfər uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunmuş müvafiq kursa göndərilmişdir. “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”na uyğun olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qarşıya qoyulmuş vəzifələrin icrasını daha mütəşəkkil həyata keçirməyə çalışacaqdır.

Proqramın həyata keçirilməsi üzrə tədbirlər planının məktəbəqədər təhsil müəssisələri üzrə görüləcək işlər hissəsi məhdud fiziki və məhdud əqli imkanlı uşaqların valideynləri üçün arzuolunan fəaliyyətdir. Məktəbəqədər yaşda olan sağlamlıq imkanları məhdud uşaqların müəyyənləşdirilməsi və onlar haqqında məlumat bazasının yaradılması, bu uşaqların Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə yerləşdirilməsi, əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə cəlb edilməsi və bu müəssisələrdə uşaqların fiziki və əqli inkişafını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən tədbirlərin görülməsi bu hissənin prioritetləridir. Son illər muxtar respublikada müasir məktəbəqədər təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi, burada uşaq aləminə uyğun şəraitin yaradılması məktəbəqədər yaşda olan uşaqların bu müəssisələrə gətirilməsinin sayını xeyli artırmışdır. Bununla yanaşı, etiraf etmək lazımdır ki, valideynlər sağlamlıq imkanları məhdud uşaqlarını uşaq bağçalarına ya aparmaq istəmir, ya da belə hallarda çətinliklərlə üzləşirlər. Unudulmamalıdır ki, körpə fidanların uşaq bağçalarına qədəm qoymaları onların cəmiyyətə inteqrasiyasına ilk addımıdır. Bu, mümkün olmadıqda, onlar özlərinə qapanır, inteqrasiya çətinləşir və sağlam uşaqlarla aralarında məsafə yaranır. Proqrama uyğun həyata keçiriləcək tədbirlər, müvafiq kurslara cəlb olunmaqla təlim-tərbiyə işinin təşkilində məsul işçilərin bu sahədə peşəkarlıq səviyyələrinin artırılması sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrindən yararlanmasında və digər uşaqlara uyğunlaşmasında mövcud auranı dəyişəcəkdir.

Proqramın icrası bir çox insanın uşaqların qüsurlu olmasına görə yalnız xüsusi müəssisədə təhsil alması təsəvvürünü dəyişdirməyə də əsas yaradacaqdır. Ümumtəhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təhsil alması şəbəkəsinin genişləndirilməsi və onların inklüziv təhsilə cəlbi bütün uşaqların erkən yaşda bir-birlərini dərk etmələrinə gətirib çıxaracaqdır. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan insanların təlim prosesinə cəlb olunmasıdır. Bu təhsil forması istər sağlam, istərsə də əlillərin bərabər təhsilalma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur, özlərinə inam hissi formalaşdırır. Əqli və fiziki imkanları məhdud uşaqların inklüziv təhsilə cəlbi bu baxımdan proqramda öz əksini tapmışdır.

Sözügedən proqramda əksini tapmış hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması, distant tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların məktəbli ləvazimatları ilə təmin edilməsi, distant tədrisin təşkili məqsədilə müvafiq pedaqoji kadrların lazımi bilik və bacarığa yiyələnməsi məsələləri də həlli vacib aktual problemlərdəndir.

Təcrübədən məlumdur ki, fiziki sağlamlığı məhdud olan insanların əmək fəaliyyətinə malik olması onları həm mənəvi, həm də maddi cəhətdən təmin edir, əhval-ruhiyyələrinə müsbət təsir göstərir. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə təhsilinə cəlb edilməsi onların gələcəkdə bu və ya digər sənət sahibi olaraq peşələrinə uyğun fəaliyyətlə məşğul olmalarına zəmin yaratmaqda əlverişli seçimdir. Bu səpgidə proqramda nəzərdə tutulmuş tədbirlərin icrası gələcək illərdə bu kateqoriyadan olan insanların işlə təmin edilməsi ilə nəticələnəcək, onların cəmiyyətin gərəkli üzvləri olması faktını təsdiqləyəcəkdir. Bundan başqa, bu həm dövlət, həm də ictimai maraqların müdafiəsinə, eləcə də məhdud fiziki imkanlı insanların əmək hüququnun qorunmasına böyük bir töhfədir.

Sağlamlıq imkanları məhdud uşaqların bacarıq və maraqları nəzərə alınaraq musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, muxtar respublikada fəaliyyət göstərən müxtəlif idman qruplarına cəlb edilməsi, istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlərin (yaradıcılıq müsabiqələri, bilik və idman yarışları və sair) keçirilməsi də proqramın tədbirlər planına uyğun məktəbdənkənar müəssisələrdə reallaşacaq həssas qrupdan olan uşaqların arzu və istəkləridir. Fiziki qüsurlu uşaqların digərlərindən daha həssas olduğu, təbiəti, əşyaf aləmi, ümumən gördüyü və eşitdiyi nə varsa, hər şeyi daha tez qavradıqları və münasibət bildirdikləri hamıya məlumdur. Belə bir imkandan istifadə edib onları rəsm və əl işləri müsabiqələrinə, xalq çalğı alətləri ifaçılığına, oyun və idman yarışlarına cəlb etməklə həm babalardan ərməğan olan minillik ənənələrimizi, milli dəyərlərimizi və simvollarımızı qoruyub saxlaya, həm də paralimpiya sahəsindəki uğurlarımızı zənginləşdirə bilərik.

Ümumiyyətlə, hər hansı bir işin səmərəliliyini artırmaq, qarşıya qoyulan məqsədlərə çatmaq üçün mütəmadi nəzarəti əsirgəməmək lazımdır. Bu baxımdan məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət üçün müvafiq komissiyanın yaradılması da zəruridir.

***Proqrama əsasən, əqli və fiziki məhdudluğu olan uşaqların təhsilə cəlbini kompleks təminetmə, infrastrukturun uyğunlaşdırılması, sistemli şəkildə aparılacaq işin məzmunu yaxın gələcəkdə bu qəbildən olan vətəndaşlarımızın təhsil sahəsindəki problemlərinin köklü şəkildə dəyişəcəyinə əminlik yaradır. Proqramın görünən ümumi hədəfi bundan ibarətdir ki, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sistemli xarakter alsın, onların təhsili səmərə və keyfiyyət baxımından yüksəldilsin, inklüziv və məsafədən (distant) təhsil üçün əsaslı zəmin yaradılsın və bu sahədə müvafiq pedaqoji kadr hazırlığı təkmilləşdirilsin. Görünməyən və gələcək illərdə şahidi olacağımız nəticə isə sağlamlıq imkanları məhdud vətəndaşlarımızın sıralarımızda nikbin dayanması, dövlət və cəmiyyət üçün vacib olduqlarını hiss etməsi və fəaliyyətləri ilə Vətənimizin qüdrətinə güc qatmasıdır.***

**Sahir RÜSTƏMOV**
*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri*

***Realist rəssam Bəhruz Kəngərlinin anadan olmasının 122-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində tədbir keçirilmişdir.***

# Bəhruz Kəngərlinin anadan olmasının 122-ci ildönümü qeyd edilmişdir

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov açmışdır. Bildirilmişdir ki, görkəmli rəssam, istedadlı fırça ustası, Azərbaycan milli rəsm sənətinin tanınmış simalarından biri Bəhruz Kəngərlinin anadan olmasından 122 il keçir. 30 il ömür sürən Bəhruz Kəngərli zəngin irs qoymuş, yeddi il yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, 2 minə qədər rəsm əsəri yaratmışdır. O, realist portret və mənzərə rəsm yaradıcılığının, eləcə də Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla Azərbaycan bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş etmiş, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirmişdir.

Dövrünün reallıqlarını əsərlərində böyük şövqlə təsvir edən Bəhruz Kəngərli xalqımız qarşısında mühüm xidmətlər göstərmişdir. O, xalqımızın tarixi keçmişini və dövrün ictimai-siyasi hadisələrini yaradıcılığında dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir.

Son illər Bəhruz Kəngərlinin Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olan zəngin bədii irsinin xalqımızın milli sərvəti kimi qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. İncəsənət xəzinəmizə dəyərli sənət inciləri bəxş edən Bəhruz Kəngərlinin əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Moskva Dövlət Tarix Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Dövlət Rəsm Qalereyasında, Bəhruz Kəngərli Muzeyində və şəxsi kolleksiyalarda qorunub saxlanılır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” 15 fevral 2001-ci il tarixli Sərəncamına əsasən, Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki məzarüstü abidəsi bərpa edilmiş, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 1972-ci ildən fəaliyyət göstərən sərgi salonuna rəssamın adı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə isə Bəhruz Kəngərli Muzeyi yaradılmışdır.

Rəssamın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 13 aprel 2012-ci il tarixdə “Bəhruz Kəngərlinin 120 illik yubileyi haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən, görkəmli rəssamın yubileyi ölkə miqyasında qeyd olunmuşdur.

Bəhruz Kəngərli irsinə muxtar respublikamızda göstərilən diqqət və qayğının davamlı xarakter daşıdığını bildirən Rəhman Məmmədov demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 12 yanvar tarixli “Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, muxtar respublikada bir sıra tədbirlər həyata keçirilmişdir. Bəhruz Kəngərli Muzeyi müasir tələblər səviyyəsində yenidən qurulmuşdur. 2013-cü ildə yenidənqurmadan sonra açılışı olan muzey yeni eksponatlarla daha da zənginləşdirilmişdir. Rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan 200-ə yaxın əsərinin yüksəkkeyfiyyətli surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə gətirilmişdir. Burada hazırda Bəhruz Kəngərli irsinə aid 900-dən çox eksponat mühafizə olunur. Muzeydə rəssamın 341 rəsm əsəri vardır. Bu rəsm əsərlərindən 58-i orijinaldır.

Ali Məclis Sədrinin qayğısı ilə Bəhruz Kəngərlinin əsərlərindən ibarət albom-kataloq nəfis tərtibatla nəşr olunmuş, 2013-cü ildə Bəhruz Kəngərli Muzeyində təqdimatı keçirilmişdir. Albom-kataloqa xronoloji ardıcıllıqla 1911-ci ildən 1922-ci ilədək olan dövrdə çəkilmiş rəsmlər külliyyatı daxil edilmişdir. Albom-kataloqda yer alan “İlanlıdağ”, “Ağrıdağ”, “Əshabi-Kəhf”, “Nəhəcir dağı”, “Qızlar bulağı şəlaləsi”, “Dağ mənzərəsi”, “Qara dəniz” və “Qaçqınlar” silsiləsinə daxil olan əsərlər yüksək bədii sənətkarlıq nümunələridir. Bu əsərlərdə humanist rəssamın hiss və duyğuları, daxili iztirabları dolğun əks olunmuşdur.

Bəhruz Kəngərli yaradıcılığına göstərilən bu diqqət və qayğıya görə tədbir iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımızı bildiririk.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Azərbaycan Rəssamlar İttifaqının üzvləri Əli Səfərov, Həbibə Allahverdiyeva və başqaları Bəhruz Kəngərli yaradıcılığına xas olan cəhətlərdən danışmış, onun rəsm əsərlərinin Azərbaycan rəssamlığında bir məktəb yaratdığını vurğulamışlar.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından tədbir iştirakçılarına “Bəhruz Kəngərli. Albom-kataloq”u hədiyyə olunmuşdur.

Sonda realist rəssamın əsərlərindən ibarət sərgiyə baxış olmuş, Bəhruz Kəngərlinin həyat və yaradıcılığından bəhs edən “Sənətin Bəhruz zirvəsi” adlı sənədli film nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**

# 60 illik ömrün poeziya ətri

***Asim Yadigarın bu yaxınlarda, daha dəqiq desəm, yanvar ayının 5-də 60 yaşı tamam oldu. Ömrünün daha bir yubileyini qeyd edən, hazırda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olan, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, bütün bunların fövqündə isə dəyərli söz adamı, şair Asim Yadigar haqqında ürəyimdəki sözləri qələmə almaq keçdi könlümdən.***



Onunla bir dəfə Türkiyənin Gümüşhanə şəhərinə birhəftəlik mədəniyyət günlərinə yollanmışıq. Yol təəssüratlarımdan da deyə bilərəm ki, Asim Yadigar həm də yaxşı yolyoldaşıdır. Xalqın uzunömürlü təcrübəsi də göstərir ki, yol yoldaşlığı edə bildiyin biriylə ömrün sonuna kimi yanaşı addımlamaq olar. Bu mənada Asim Yadigar yaxşı şair olmaqla yanaşı, yaxşı insan, yaxşı yolyoldaşı, sirdaşdır. Məmməd İsmayılın yaddaşımda yurd salmış iki misrasını xatırlayıram:

***Şair ki sevilən şair olmadı,***
***O, insan kimi də hörmətdən düşər.***

Asim Yadigar şeirləriylə ürəklərə yol tapmış şairlərdəndir. Onun şeirlərində poeziyamızın bir çox janrlarında qələmə alınmış o qədər gözəl nümunələr var ki, istər-istəməz ruhunu riqqətə gətirir, ovqatını təzələyir, oxuduğundan heyrətlənib yenidən oxumaq istəyirsən.

"Zirvə yolu", "Unut bu sevdanı", "Oğul dağı", "Hər şeyin sonu var", "Midiyanın süqutu", "Kalba Musa çeşməsi", "Bahar", "Sənətinin vurğunu" adlı 8 kitabın müəllifi olan Asim Yadigar Naxçıvanda yaşasa da, sözüylə, şeirləriylə Azərbaycanı boydan-boya dolaşıb. Qonşu ölkələrdəki mötəbər kürsülərdən onun şeirləri ürəklərə yol tapa bilib. O həm də məhsuldar fəaliyyəti ilə seçilən şairdir. Təkcə elə sadalayacağım faktları 60 illik ömrə sığdırmaq böyük istedad, qabiliyyət və zəhmət tələb edir.

Belə ki, Asim Yadigar 6 pyesin, 20-yə yaxın poemanın müəllifidir. Onlarla şeri fransız, rus, fars, türk dillərində nəşr olunan qəzet və jurnallarda, ədəbi almanaxlarda çap edilib. 20-yə yaxın almanaxda 70-dən artıq şeri, poeması, pyesi işıq üzü görüb. Bir vaxtlar çalışdığı "İki sahil" və "Şərq qapısı" qəzetlərində, eləcə də ölkənin digər mətbu orqanlarında yüzlərlə məqaləsi, resenziyası çap olunub. Naxçıvan Dövlət televiziyasında və radiosunda son 25 ildə minə yaxın veriliş hazırlayaraq tamaşaçı və dinləyicilərlə görüşüb.

Bütün bunların hamısını göz önündə canlandıranda, sözün həqiqi mənasında, bir yaradıcılıq heykəli qarşısında dayandığını zənn edirsən.

Asim müəllimin yazdığı şeirlər içərisində yaddaşıma həkk etdiyim bir çox nümunə var. Amma tarixçialimə ünvanlanmış şerində bir vətəndaş, milli təəssübkeşlik duyğusunu aydınca görmək olur.

***Tarixin toz basmış cığırlarında***
***Bəzən seçmək olmur qaradan ağı.***
***Min ildən o yanda qalan tarixi***
***Sonradan başqa cür yazırlar axı.***

***Xalqlar var, qələmdən tutur qılınctək,***
***Qələmlə döyüşüb zəfər çalırlar.***
***Elə tarix yazır tarix yazanlar,***
***Tarixin özünü çaşbaş salırlar.***

***Minillik tarixlər qələmə möhtac,***
***Tarix də qələmin quludur, demək.***
***Kimin güclüdürsə qələm tutanı,***
***O xalqın tarixi uludur, demək.***

Bir neçə bəndini nümunə gətirdiyim bu şeirdə şair nə qədər gözəl ifadə edib qələmin qüdrətini. "Kimin qələm tutanı güclüdürsə, o xalqın tarixi də güclüdür" ifadəsi təkcə müəyyən bir zamanın yox, məncə, bütöv bir zamanın ifadəsidir. Və zaman bunu şairdən alacaq, xalq bunu şairdən alaraq özünün folklor genefonduna daxil edəcək, minilliklər boyu yaşadacaq; atalar sözü, məsəllər səviyyəsində qoruyacaqdır. Çünki bu iki misranın daşıdığı məna yükündə böyük mətləblər ifadə olunur. Şair həm də bütün zamanlarda qələm sahiblərinin qılınc sahiblərindən daha güclü olduğunu göstərir. Bu gün dünyaya vaxtı ilə sahiblik edən, hakim olan hökmdarların hökmü dara çəkilib. Amma sözün qüdrəti həm də ondadır ki, o, əsrləri, nəsilləri geridə buraxaraq zamana yoldaşlıq edə bilib.

Bu şeirdə Asim Yadigarın demək istədiyi bir başqa mətləb isə tariximizi həmişə düzgün və dəqiq yazmaq, təbliğ etməkdir. Yəni qələmimiz həqiqəti, doğrunu zamanında yazdıqca nə bu xalqı, nə də onun tarixini heç kim dana bilməyəcəkdir.

Sözlərində öz kədərindən daha çox xalqının kədəri ifadə olunan bir şairin şeirlərində millət yanğılı, Vətən sevdalı, xalq eşqi ilə döyünən o qədər şeirlərə rast gəlirik ki.

"Bir nağıl de", "Səni döyüşə göndərirəm", "Azərbaycan bayrağı", "Azərbaycan dünyaya Günəş kimi doğacaq", "Hücum əmri ver mənə", "Döyüş havaları çaldırmalıyıq", "Darıxan məzarlar" və bu qəbildən olan yüzlərlə, bəli, yüzlərlə şerində Asim Yadigar təkcə şair deyil, həm də vətəndaşdı, əsgərdi, şəhiddi.

O, bəzən bir misra üstündə ağlamağı bacaran şairdir. Sözün qədrini bilənlər, sözə tapanlar, sözə xidmət edənlər nə o sözü dəyərdən düşməyə qoyarlar, nə də onu havayı sərf edərlər. Bu mənada Asim Yadigar da sözə ən qiymətli varlığı kimi yanaşır. Ona görə də şeirlərinin birində deyir ki:

***Söz üstündə əriyirəm, yanıram şam tək,***
***Elə bil ki, oturmuşam köz üstündə mən.***
***Ağlayıram için-için, bir kimsə bilmir,***
***Ağlayıram bircə misra söz üstündə mən.***

Sözə bu cür həssas yanaşan şairin yaradıcılığında istədiyiniz qədər maraqlı şeirlərə, misralara rast gələ bilərsiniz. Belə ki, "Muğam", "Qızımın "üsyanı", "Mən böyük adamam", "Özümlə söhbət", "Darıxan məzarlar", "Hər şeyin sonu var", "Unut bu sevdanı", "Bir damla yaş kimi" və sair şeirlərin siyahısını artırmaq olar.

Yaradıcılığı bu cür bədii poetik nümunələrlə dolu olan poeziya aşiqi, söz divanəsi Asim Yadigarın həm də qeyri-adi yaddaşı var. Onun hafizəsinə xalqın söz xəzinəsinin yüzlərlə nümunəsindən əlavə, Xaqanidən, Həsənoğludan, Nəsimidən, Füzulidən, Xətaidən, Vaqifdən, Dədə Ələsgərdən, Səməd Vurğundan, Bəxtiyar Vahabzadədən, Məmməd Arazdan, ən müasir Azərbaycan poeziyasının dəyərli şairlərindən, eləcə də Türkiyə və Şərq poeziyasının tanınmış onlarla şairindən, rus və dünya klassiklərindən yüzlərlə, yaddaşı silkələsən, bəlkə də, minlərlə nümunə həkk olunub. Bütün bunlarla yanaşı, o, özünün qələmə aldığı, həcmcə kiçik, yaxud böyüklüyündən asılı olmayaraq, bütün poeziya nümunələrini əzbərdən bilir. Hətta bəzən şair dostlarının öz şeirlərini söyləyərkən yadlarından çıxan misraları Asim müəllim onlara xatırladır.

Bu gün də təkcə şair və yazıçılar yox, bəzən ayrı-ayrı sahələrdə çalışan ziyalılar belə, hər hansı bir misrada, şeirdə dara düşəndə mütləq Asim müəllimin zəngin yaddaşına müraciət edirlər.

Asim Yadigar həm də Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədridir. 2007-ci ildə birliyin növbəti konfransında sədr seçiləndən sonra blokadada olan bu bölgədə ədəbi mühitdə xeyli canlanma yarandı. Demək olar ki, hər ayda 3 dəfə burada ayrı-ayrı ədəbi dərnəklər keçirilir. Ayda bir dəfə gənc ədəbi qüvvələrin yığıncağı təşkil olunur. Burada şeirlərini oxuyan, hekayələrini səsləndirən yeniyetmə yaradıcılara Asim müəllim öz məsləhətlərini əsirgəmir.

Hazırda Asim Yadigar şeirlər, poemalar və dram əsərlərindən ibarət yeni kitabı çapa hazırlanır. Bundan əvvəlki kitablarında olduğu kimi, bu yeni nəşrdə də biz sevilən şairin bir-birindən maraqlı şeirlərini oxuyacağımıza əminik.

60 il bir insan ömrü üçün zaman etibariylə, bəlkə də, yetərli deyil. Lakin 60 illik bir ömürdə bu qədər işlərin görüldüyünü düşünəndə Asim Yadigarın bu ömürdən səmərəli şəkildə istifadə etdiyi qənaətinə gəlirsən.

İnsan arzuları isə qətiyyən tükənmir. Asim müəllimin də hələ arzusunda olduğu çox şeylərin var olduğuna əminəm. Bu mənada mən Asim müəllimi 60 illik yubileyi münasibətilə təbrik edir, ona arzularına çatacağı uzun ömür payı arzulayıram.

***Şair qəlbi kövrək olur, – deyirlər. "Qurd oğlu, qurd olasan gərək bu zəmanədə, yaşamaz, canım gözüm, çiçək bu zəmanədə" desəniz də, nə qədər ki şairlər var, ürəklərə yol tapan şeirlər var, o şeirlərdə hələ çox çiçəklər atir saçacaq. Poeziya ətriniz heç zaman tükənməsin.***

**Elxan YURDOĞLU**
***şair***

## Narkotik qaçaqmalçılığı üzrə daha iki fakt aşkarlanıb

*Gömrük əməkdaşlarının sayıqlığı nəticəsində narkotik qaçaqmalçılığına yönəlmiş daha iki cəhdin qarşısı alınıb. Hər iki fakt üzrə araşdırmalar zamanı məlum olub ki, Azərbaycan Respublikası vətəndaşları narkotik vasitələri yenə də İran İslam Respublikasından əldə ediblər və hər iki fakt üzrə gizlətmə üsulu eyni olub.*

Belə ki, 1975-ci il təvəllüdlü Babək rayon Qahab kənd sakini Fərzəliyev Mayis Atakişi oğlu anasına dərman almaq adı ilə evdən çıxıb və əvvəlcədən tanıdığı "iranlı tanış"ı ilə görüşüb narkotik vasitə əldə etmək üçün Culfa gömrük sərhəd-buraxılış məntəqəsindən keçərək Mərənd şəhərinə gedib. Əvvəllər "quş alveri" elədiyi şəxsdən bu dəfə göyərçin əvəzinə narkotik maddə alan Mayis Fərzəliyev elə həmin gün də geri qayıdıb. O, Culfa gömrük sərhəd-buraxılış məntəqəsində şübhəli şəxs qismində saxlanılaraq şəxsi yoxlamaya cəlb olunub. Şəxsi yoxlama zamanı vətəndaş Fərzəliyev Mayis Atakişi oğlunun corablarında gizlətdiyi xalis çəkisi 131 qram olan marixuana və xalis çəkisi 20 qram olan həşiş, ümumilikdə, 151 qram narkotik vasitə aşkarlanaraq götürülüb.

Vətəndaş Fərzəliyev Mayis Atakişi oğlu ifadəsində bildirib ki, hərbi xidmət dövründə də cinayət əməli törədərək ömrünün bir il səkkiz ayını həbsdə keçirib. Özünün dediyinə görə, narkotik maddə qəbul etdiyini ailədə və qohum-əqrəba arasında bilən olmayıb. Müəyyən yollarla əldə etdiyi narkotik vasitəni, əsasən, gizli yerlərdə qəbul edib.

Digər bir cinayət əməlini isə 1982-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşı, Xudat şəhər sakini Cavadov Xəyal Şaban oğlu törədib. O, əvvəlcədən əlbir olduğu İran vətəndaşı ilə telefon əlaqəsi saxlayaraq Biləsuvar gömrük sərhəd-buraxılış məntəqəsindən keçərək Təbriz şəhərinə gedib. Adı istintaqa məlum olan şəxslə Təbriz şəhərindəki "gürcü bazarı" deyilən yerdə görüşüb. Narkotik vasitə səhəri gün ona çatdırılacağından bir gecə oteldə qalmalı olub. 500 manatın müqabilində aldığı narkotik vasitəni elə qaldığı otaqda təhvil götürən Xəyal Cavadov Azərbaycan Respublikası ərazisinə keçmək üçün Culfa gömrük sərhəd-buraxılış məntəqəsinə gəlib. Onun üzərində aparılan şəxsi yoxlama zamanı corablarında gizlətdiyi xalis çəkisi 191,6 qram narkotik vasitə – tiryək aşkarlanaraq götürülüb.

Vətəndaş Cavadov Xəyal Şaban oğlunun planı İrandan əldə etdiyi narkotik maddəni Naxçıvan ərazisinə keçirib buradan hava yolu ilə Bakıya aparmaq olub. Xatırladaq ki, ötən il də iki belə fakt üzrə üç Azərbaycan Respublikası vətəndaşı saxlanılaraq həbs edilib.

Qeyd edək ki, hər iki fakt üzrə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq və təhqiqat şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb. Qanunvericiliyə əsasən, Cinayət Məcəlləsinin bu maddəsi ilə təqsirləndirilən şəxs üçün üç ildən yeddi ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvanın gənc futbolçuları üçün mötəbər turnir

Cari ilin əvvəlində Naxçıvan idmançıları daha bir mötəbər turnirdə qüvvələrini sınayacaqlar. Uzun fasilədən sonra böyük futbola qayıdan muxtar respublika klubunun yeniyetmələrdən ibarət komandası bu dəfə Azərbaycan kubokunun final mərhələsində çıxış edəcək. Belə ki, tarixdə ilk dəfə olaraq Naxçıvanın 2000-ci il təvəllüdlü futbolçularından ibarət futbol komandası kubok yarışında iştirakçı qismində meydana çıxacaq.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən Bakıda təşkil edilən kubokun final mərhələsində 8 komandanın iştirak edəcəyi gözlənilir. Bu turniri təşkil etməkdə əsas məqsəd isə respublikada futbolun kütləvi hal almasına nail olmaqdır. Yanvarın 27-də start veriləcək turnirdə ancaq regionlarda elit məşqçilərin rəhbərlik etdiyi komandalar mübarizə aparacaqlar. Naxçıvan komandasını bu turnirdə meydana elit məşqçilər Bilal Nağıyev və İntiqam Rəhimov çıxaracaqlar. Reqlamentə əsasən, 2000-ci il təvəllüdlü futbolçularla yanaşı, hər komandadan 2001-ci il təvəllüdlü üç oyunçu da meydana çıxa bilər.

✍ **Ceyhun MƏMMƏDOV**

### *Bildiriş*

"Cennet İnşaat Taahhüt Nakliyat İthalat İhracat Turizm Gida Sanayi ve Ticaret LTD" Şirkətinin Naxçıvan Muxtar Respublikası filialının fəaliyyəti dayandırıldığından ləğv olunur.

### *İtmişdir*

Məmmədov Ceyhun Eyvaz oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim kollektivi Məmməd və Zakir Rzayevlərə, əzizləri **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Modul Elektrik Stansiyasının direktoru Məhərrəm Abbasov və stansiyanın kollektivi iş yoldaşları Sənan Əzimova, atası **ƏYYUBUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Naxçıvan Duz İstehsalı" MMC-nin kollektivi cəmiyyətin direktoru Anar Əsədullayevə, əmisi **MİRHEYDƏR ƏSƏDULLAYEVİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının əməkdaşları Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Süleyman Mehdiyevə, əzizi **ŞƏMSİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru Yasəmən Ramazanova və teatrın kollektivi Əli Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Xarici tələbələrlə iş üzrə dekanlığının kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri Yusif Hüseynov və kafedranın əməkdaşları Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Magistratura üzrə dekanı Etibar Məmmədov, dekan müavini Asəf Əliyev və fakültənin kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 83